# Prezident İlham Əliyev “Qarabağ Azərbaycandır!” həqiqətini xalqımızın Qarabağ qələbəsi zirvəsinə yüksəltdi



***“Sanki birdən-birə Qarabağın başı üstündəki qara buludlar parçalandı. Bu torpaqda başlanan müqəddəs savaşımız ölkə rəhbərliyini, ordumuzu və xalqımızı misilsiz bir cazibə – yurd sevgisi ilə birləşdirib yenilməz qüvvəyə çevirdi. Tarixdən bilirdik ki, xalq dar ayaqda birləşir. Bu zəhmli qüvvə zaman-zaman xalqımıza qarışı quldur bir topluma çevrilmiş qaniçən ermənilərin başlarına endikcə yer onların ayaqları altından qaçmağa başladı. Nəhayət, yaramaz düşmən diz çökərək məğlub olduğunu boynuna aldı. Qeyrət qalası Şuşanı işğaldan azad etməklə işğalçı Ermənistan qəhrəman ordumuzun qarşısında diz çökdü”.***

**Tanınmış bədii qiraət ustası, vətənpərvərlik poeziyamızın mahir ifaçısı, Əməkdar artist Azad Şükürov xalqımızın Qarabağda yaratdığı çağdaş əfsanə ilə bağlı qəzetimizə açıqlamasının davamında bildirdi:**

– Mən müharibə başlayandan dəfələrlə müəyyən qruplarla, sənət adamları ilə cəbhə bölgəsinə getmişəm, orda əsgərlərimizlə, düşmən atəşi altında yaşayıb-çalışan dinc əhali ilə görüşlərimiz olub. Sonuncu dəfə təcavüzkar Ermənistanın Bərdədə dinc əhaliyə qarşı törətdiyi müharibə cinayəti ilə bağlı o bölgəyə getdik. Düşmənin raket-mərmi hədəfinə çevirdiyi Tərtər şəhərində, Tap Qaraqoyunlu kəndində də olduq. Hər səfərimizdə imkan daxilində payımız-sovqatımız da olur. Mən buna yardım demirəm, çünki Azərbaycan Ordusunun, cəbhə bölgəsi əhalisinin hansısa yardıma ehtiyacı yoxdur. Amma onların kənar diqqətə, mənəvi dəstəyə tələbatı var – yanlarına gedəndə gərək qəlbin dolu, əlin də boş olmasın.

Cəbhədə hər şey yüksək səviyyədə təşkil olunub, uğurlu döyüşlər də, hərbçilərimizin gündəlik ehtiyaclarının ödənilməsi də. Mən özüm bunların şahid oldum, Azərbaycan Ordusu hərəkətdə olan yenilməz bir gücdür. Ölkənin hər yerində hökm sürən intizam, qələbə əzmi, hədsiz mehribançılıq arxa cəbhənin döyüşən orduya misilsiz dəstəyini ifadə edir. Cəbhə bölgəsində yaşayan insanların əhval-ruhiyyəsi çox yüksəkdir, hamı Ali Baş Komandana öz atalarına, qardaşlarına inandığı kimi kimi inanır. Hamının evində, iş yerində, maşınında Ali Baş Komandanın şəkili, bayraqlarımız asılılıb.

**Müharibənin ilk günündən döyüş əməliyyatlarının yüksək səviyyədə həyata keçirildiyini vurğulayan ünlü sənətçi daha sonra söylədi:**

– Savadlı, bacarıqlı komandirlərimiz, hərbi kadrlarımız ona çalışırlar ki, az itki ilə yüksək nəticələr qazanılsın. Mən birinci Qarabağ döyüşlərində də olmuşam, indi də əsgər və zabitlərimizlə cəbhədə görüşürəm. O zaman da döyüşçülərdə vətənpərvərlik və qeyrət yüksək idi – ordu bu iki dəyərdən güc alıb vuruşurdu. Amma indiki müharibəmizdə hər şey – vətənpərvərlik də, qeyrət də, hərbi qüdrət də, güclü dövlət də, milli birlik də, mükəmməl idarəolunma da tələb olunan səviyyədədir. Təbii ki, bütün bunlar olan yerdə mütləq qələbə var. Xalqımıza və ordumuza ruh verən bax budur.

Döyüşlərin getdiyi dağlıq ərazinin törətdiyi çətinliyi, işğalçıların illər boyu bu yerlərdə möhkəmləndiyini nəzərə alsaq, düşməni geri oturtmaq o qədər də asan deyil. Gendən baxana döyüş asan gəlir – deyirlər. Amma gərək gedib baxasan ki, orda vəziyyət necədir. Mən özüm qarabağlı olduğuma görə o torpaqlar mənim üçün çox yaxındır, o yerlərin relyefini az-çox bilirəm. Bu mənada ordumuzun qəhrəmanlığı, cəbhəyanı bölgədə fasiləsiz düşmən atəşi altında ev-eşiyini bir an da tərk etməyən əhalinin qeyrət və dözümü, xalqımızın qələbə əzmi məndə sonsuz bir coşğu yaradır. Çalışıram ki, bu sevinc və inamı sənətin dili ilə ümummili ruh yüksəkliyimizə qatam.

**Sənəti, ifaçılıq məharəti ilə daim xalqımızı qələbəyə səsləyən Əməkdar artist Azad Şükürov sonda qazanılmış qələbə münasibətilə xalqımıza gözaydınlığı verdi:** “İçimdəki çox böyük inam, gördüklərim onu deyirdi ki, bu müqəddəs savaşda quldur düşmən məğlub olacaq. Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə ordumuz, birliyimiz işğalçıları bu gözləntiyə uyğun olaraq tam diz çökdürdü. Ulu Tanrının himayəsi ilə Qələbə bizim oldu! Xalqımızın gözü aydın olsun! Tanrı qalib Ali Baş Komandanımızı qorusun və yeni zəfərlərə qovuşdursun!

Gün o gün olsun ki, Qarabağda bütün sönmüş çıraqlarımızın hamısı yansın, dünyadan nakam getmiş köçkün soydaşlarımızın ruhları bir daha sevinsin! Zəfərlərimizin önündə dayanan Prezidentimizin dediyi və gerçəkləşdirdiyi kimi oldu: Qarabağ Azərbaycandır!”

***Hazırladı: Tahir AYDINOĞLU,***
***“Xalq qəzeti”***

Xalq qəzeti 2020.- 11 noyabr.- S.10.